BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 *Humanitar elmlər seriyası* 2008

# AVROPA KONSTİTUSİYASI: PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR

**N.C.NAĞIYEVA**
***Bakı Dövlət Universiteti***

Dünyanın bütün başqa regionlarında olduğu kimi, Qərbi Avropada da zaman-zaman dağıdıcı müharibələr və kütləvi qırğınlar bir-birini əvəz etmiş, bu müharibələr nəticəsində milyonlarla günahsız insanın həyatına son qoyulmuş, ölkələr, şəhərlər və kəndlər dağıdılıb, viran edilmişdir. Məhz bu faktor əsrlər boyu Qərbi Avropada ümumi dəyərlər zəminində inteqrasiya meyllərini şərtləndirmişdir. Hələ İntibah dövründə Avropanın bu və ya digər mədəni cəhətdən inkişaf etmiş ölkəsində müharibələrin, insan qırğınlarının, ictimai bəlaların qarşısını almaq üçün yollar axtarılmış, nəzəriyyələr irəli sürülmüşdür.

Həmin dövrdə meydana gələn nəzəriyyələrdən biri də Qərb dünyasının ilk siyasət nəzəriyyəçilərindən biri olan böyük mütəfəkkir N.Makiavelliyə (1469 – 1527) məxsus olmuşdur. O, ayrı-ayrı dövlətlərə parçalanan və daxili çəkişmələr nəticəsində zəifləyən vətəni İtaliyanın birləşməsi üçün, elə bu gün də Avropanın birləşməsi işində yararlı ola biləcək model-plan işləyib hazırlamışdı. Məşhur «Hökmdar» əsərində o, İtaliyanı bu bəlalardan xilas etməyin yollarını göstərməyə çalışmış, bunu, ilk növbədə, dövlətin idarə edilməsində sərt hakimiyyət sistemində və onu bir mərkəzdə birləşdirə biləcək güclü hökmdarın şəxsiyyətində görmüşdür. Makiavellinin İtaliyanın birləşdirilməsi təklifindən bəhs edən V.İ.Rutenburq yazır: «Burada ayrı-ayrı İtaliya dövlətlərinin müvəqqəti hərbi ittifaq qurmaq təklifindənmi, daimi federal konstitusiyadanmı, yoxsa vahid İtaliyadanmı bəhs olunur, demək çətindir» (16, s. 369).

N.Makiavellidən təxminən bir əsr sonra görkəmli fransız siyasətçisi, hersoq M. de Syülli (1560-1641) də Fransanın daha da qüdrətlənməsi üçün bir sıra təklif irəli sürmüşdür. «Dövlət təsərrüfatının prinsipləri» əsərində bununla əlaqədar o, yazırdı: «Fransanın hər bir kralı ona düşmənçilik və nifrət etməkdən doymayan, ondan güclü olan rəqiblərdənsə, onunla ümumi maraqlar əsasında sıx bağlı olan dost və müttəfiqlər qazanmaq barədə düşünməlidir, – bu ən etibarlı əlaqədir» (12, s. 204-205). Syülli yalnız Fransanın deyil, eyni zamanda bütün Avropanın gələcək taleyi haqqında düşünmüş və bu barədə də maraqlı təkliflər etmişdi. Bu gün Avropa ictimaiyyətini düşündürən Avropanın bir mərkəz şəklində birləşməsi və bu birləşmənin müxtəlif modellərinin axtarılması ideyası hələ vaxtilə Syülli tərəfindən siyasət meydanına atılmışdı. Onun fikrincə, «Avropa gələcəkdə altı irsi monarxiyaya, beş seçkili monarxiyaya və beş respublikaya bölünəcəkdir. Bütün bu dövlətlərin başında xüsusi

şura duracaq ki, o, ümumi sülhü qoruyacaq və dövlətlər, hökmdarlar və təbəələr arasında olan mübahisələri araşdıracaqdır» (12, s. 205). Belə nəzəriyyələrdən ilkini P.Dübuaya məxsus idi. O, özünəməxsus intuisiya ilə Avropanın canını müharibələrdən qurtarması yolunu «monarxların birliyində» axtarmış və Fransa kralının rəhbərliyi altında Avropa monarxlarının federasiyasını yaratmağı təklif etmişdi. Onun fikrincə, bu birliyin dini əsasları kifayət qədər möhkəm ola bilər. I Napoleon Avropa Birliyini özünəməxsus formada reallaşdırdı. XIX yüzilliyin II yarısından etibarən Avropa Birləşmiş Ştatları ideyası yarandı və yayılmağa başladı. İyirminci yüzilliyin 20-ci illərindən etibarən isə panavropa ideyaları böyük populyarlıq qazandı və II Dünya müharibəsindən sonra yenidən vahid Avropa evi formasında yeni mərkəzçilik modeli qurulmağa başladı.

Məlum olduğu kimi, artıq 50 ildən çoxdur ki, dəhşətli müharibə kabusu Avropa dövlətlərinin başı üzərində hərlənmir. Demək olar ki, dünyanın bu regionunda olduğu kimi başqa heç bir yerində, heç bir vaxt belə dövlətlərarası iqtisadi, siyasi, mədəni və sosioloji əməkdaşlıq olmamışdır. Dünyanın heç bir yerində Qərbi Avropada olduğu kimi qonşu dövlətlər arasında antaqonist münasibətlərin yaranmasına bu qədər səmərəli və möhkəm təminat verilməyib. Heç yerdə sərhədlər belə şəffaf deyil, sənaye məhsullarının istehsalı və sosial xidmətlərin sərbəst inkişafı üçün belə mükəmməl şərait yaradılmayıb.

Təəccüblü deyil ki, hələ erkən orta əsrlərdən başlayaraq Qərbi Avropa xalqları ya silah, ya da inandırma yolu ilə ("Avropa ideyası") birləşməyə (inteqrasiyaya) can atmışlar. Uzun müddət Avropanın birləşməsinin baş tutmamasının əsas səbəbi isə bu ideyanın həyata keçirilməsi üçün əlverişli iqtisadi-siyasi və geosiyasi şəraitin olmaması idi. XX yüzilliyin 90-ci illərindən etibarən Avropa inteqrasiyası son dərəcə güclü şəkildə start götürdü. Minilliklər boyu davam edən kəmiyyət dəyişikliklərinin keyfiyyət dəyişikliklərinə keçməsi göz önündə idi. İndi Avropa inteqrasiyasının əsas məqsədi, ilk növbədə, dünyanın böyük bir regionunda siyasi sabitliyin, enerji təhlükəsizliyinin və iqtisadi inkişafın təmin olunmasıdır. Bu, ilk növbədə, ayrı-ayrılıqda Avropa dövlətlərinin milli maraqlarına və son nəticədə isə dünyanın digər regionlarının xalqlarının maddi rifahının yaxşılaşmasına xidmət edir. Bir sıra aparıcı Avropa dövləti inteqrasiya müstəvisində qloballaşma prosesini daha da gücləndirmək məqsədilə vahid struktura malik olan Avropa İttifaqı İnstitutunu təsis edib və bir mərkəzdə birləşmək qərarına gəlib. Avropa İttifaqına daxil olan ölkələrin vətəndaşları eyni zamanda həm də bu İttifaqın vətəndaşları olurlar. Avropa İttifaqı bu gün hələlik bu regionda ən güclü təsirə malik olan siyasi-iqtisadi strukturdur (9).

Müasir ABŞ-ın Aİ ilə bağlı siyasəti zahirən aydın və birmənalıdır. Bunu məşhur Amerika siyasətçisi Z.Bjezinskinin son dövrlərdə çap etdirdiyi kitablarda (1, s. 65-66; 2) aydın şəkildə görmək olar. O, yazır: «Rəsmi Vaşinqton Avropanı, dünya liderlik yükünü Amerika ilə bölüşdürməsi üçün həmişə kifayət qədər güclü vahid bir birlik kimi görmək istəyir» (1, s. 65).

Amerikalı Ceyms Qudbi, Qərbi Avropalı Petrus Buvalda və rusiyalı Dmitri Trenin kimi üç məşhur politoloqun birgə işləyib hazırladığı "Sabit dünyanın strategiyası. Avroatlantik təhlükəsizliyi qarşılayarkən" (4) əsərində isə gələcək Avropanın əsas iki modeli haqqında bəhs olunur. Belə ki, bu modellərdən birincisi, Birləşmiş Avropa uğrunda hərəkatın

əsasını qoymuş Jan Monnenin federal Avropa layihəsidir. İkinci model isə keçmiş Fransa Prezidenti Şarl de Qollun təklif etdiyi suveren dövlətlərdən ibarət Avropa layihəsidir (4, s. 86).

Almaniyanın xarici işlər naziri Y. Fişer 2000-ci il mayın 12-də Berlində etdiyi çıxışında "Federativ Avropa" anlayışını gündəmə gətirdi. Uzunmüddətli fasilədən sonra yenidən "federal" sözunu işlədən Y.Fişer gələcək Avropanın ən optimal quruluşu kimi federasiya sistemini təklif etdi və onun fikrincə Avropa vətəndaşlarının hərtərəfli hüquqlarına yalnız konstitusiyaya əsaslanan federasiya zəmanət verə bilər. Y.Fişerin bu fikri söyləməsinə əsas səbəb son zamanlar Avropa vətəndaşlarının Avropa İttifaqına inamının azalması olmuşdur və o, belə hesab edirdi ki, yalnız bu yolla müəyyən qədər laxlamış Avropa İttifaqı sisteminə cəmiyyətin inamını qaytarmaq olar. Onun fikrincə, Avropa İttifaqına daxil olan və gələcəkdə də daxil olacaq dövlətlərin mövcudluğunu və bu quruma daxil olan vətəndaşların milli simalarını (identiklik) qorumaq şərti ilə federasiya tam suverenliyə malik bir sistem ola bilər. Bu isə öz növbəsində, federal səviyyədə yalnız bütün Avropa miqyasında həlli tələb olunan məsələlərə baxılacağına, qalan işlərin isə ayrı-ayrı dövlətlərin öz səlahiyyətləri çərçivəsində saxlanılacağına zəmanət verir. Y. Fişerin fikrincə, bu proses bir neçə mərhələdən keçməlidir ki, bu mərhələlərdən biri də Avropa Konstitusiyasının qəbul olunmasıdır (4, s. 86-90). Bu da öz növbəsində son illər müəyyən qədər öz səmərəliliyini itirməkdə olan Avropa mərkəzçiliyi ənənəsinin dirçəldilməsinə və qismən möhkəmlənməsinə xidmət etməkdədir.

Beləliklə, Avropa İttifaqının daha da inkişaf etməsi, formalaşması və müəyyən hüquqi əsaslarla idarə olunması üçün ilk dəfə olaraq gündəmə Avropa İttifaqı Konstitusiyası modeli ideyası gətirildi. Fransanın Prezidenti J.Şirak hələ 2000-ci il iyunun 27-də Bundestaqdakı çıxışında bu məsələlərlə əlaqədar Y.Fişerə ətraflı və əsaslı cavab vermişdi. "Birləşmiş Avropa Dövlətləri" yaratmaq məqsədi daşıyan J.Şirakın çıxışında isə bir dəfə də olsun "federativ" sözu işlənməmişdi. Halbuki, o da Avropa İttifaqı Konstitusiyası ideyasını dəstəkləyirdi və əməkdaşlıq üçün iqtisadiyyat, müdafiə və təhlükəsizlik, eləcə də, cinayətkarlıqla mübarizə sahəsini təklif edirdi. Maraqlıdır ki, bu əlaqələr sırasında Aİ-nin xarici siyasət və beynəlxalq münasibətlər məsələsi yox idi. Böyük Britaniyanın baş naziri T. Bler isə 2000-ci il oktyabrın 6-da Varşavada etdiyi çıxışda Avropa İttifaqının orqan və qanunlarında bəzi konkret dəyişikliklər edilməsi təklifini irəli sürsə də, Avropa İttifaqı Konstitusiyası ideyasını rədd etdi və "müəyyən mənada səlahiyyətlərin bölüşdürülməsi xartiyası" (4, s. 90) prinsipi ilə razılaşmadığını bildirdi.

Avropa İttifaqı mövcud durumda, eləcə də, gələcəkdə daha da genişlənmə perspektivində çətin idarə oluna biləcək bir siyasi quruma, bir sıra politoloqların iddia etdiyi kimi "neoimperiyaya" çevrilmək təhlükəsi ilə qarşılaşa bilər. Avropanın bu perspektivini, demək olar ki, dünyanın əksər siyasi nəzəriyyəçiləri və politoloqları proqnozlaşdırırlar. Aİ-nin yaradıcıları və aparıcı dövlətlərin rəhbərləri də bu təhlükəni görməyə bilməzdilər və gördülər də. Onların bir qismi yenicə formalaşmaqda olan Aİ-nin taleyini təhlükə qarşısına qoymamaq və onun fəaliyyətini artıq çoxdan sınaqdan çıxmış qanunvericilik sistemləri cərçivəsində idarə etmək haqqında düşünməli oldular və bunun yeganə çıxış yolunu da Avropa Konstitusiyasının yaradılmasında gördülər. Digər qismi isə, əksinə,

bu Konstitusiyanın qəbul olunacağı təqdirdə müəyyən fəsadlar yaradacağını proqnozlaşdıraraq, onun təsdiq edilməsinə əngəl törətməyə çalışdılar.

Avropa İttifaqının qərar qəbuletmə mexanizmini hazırda, əsasən, Avropada fəaliyyət göstərən bir sıra ayrı-ayrı birliklər, o cümlədən də Avropa Parlamenti, Avropa Şurası, Avropa Şurası Parlament Assambleyası (AŞ PA), Regionlar üzrə Komitə, Avropa İnvestisiya Bankı, Avropa Mərkəzi Bankı və Avropa Konvensiyası həyata keçirir. 2001-ci ilin dekabr ayında Laekendə Avropa İttifaqı Şurasının genişləndirilmiş iclası keçirildi. Bu iclasda iştirak edən üzv dövlətlərin və namizəd olkələrin hökumətləri, milli parlamentləri, Avropa Parlamenti və Avropa Komissiyasının nümayəndələri Avropa Konvensiyasını yaratdılar və Fransanın keçmiş prezidenti J.Desteni onun prezidenti seçdilər. Bu qurumun yaranmasının başlıca məqsədi, gələcəkdə, Avropa İttifaqı genişləndiyi zaman, onun idarə edilməsinin yeni üsullarını işləyib hazırlamaqdan ibarət idi. Belə ki, bu gün 25 ölkəni birləşdirən Avropa İttifaqı öz fəaliyyətində əsasən iki çətinliklə üzləşir: bunlardan birincisi, gələcək onillikdə, genişlənmə nəticəsində üzv dövlətlərin sayının 30-35-ə, daha sonra isə 40-45-ə çata bilməsidir. Bu qədər üzv dövlət rəhbərlərinin bir masa arxasında oturub vahid bir fikrə gəlməsi, hansısa vacib bir məsələnin həlli zamanı ortaq məxrəc tapması müşkül məsələyə çevrilə bilər. İkincisi isə, analitiklərin dediyi kimi, "Aİ vətəndaşları Aİ siyasətinin hazırlanmasında daha çox iştirak etmək istəyirlər. Lakin onlar Aİ-nin çox mürəkkəb qərar qəbul etmə sistemini anlamaqda çətinlik çəkir, "Brüsseli" öz gündəlik həyatlarından çox uzaqda görürlər. Buna görə də, Avropa İttifaqında hansı işlər üçün kimin cavabdeh olduğunu aydın göstərəcək konstitusiyanın olmasına ehtiyac vardır" (5, s. 22).

Göründüyü kimi, Avropa İttifaqının gələcək inkişafının daha effektiv və səmərəli fəaliyyətini təmin etmək üçün Avropa Konstitusiyasının hazırlanması və qəbulunun böyük əhəmiyyəti özünü büruzə verir. P.Fontanın təqdim etdiyi sənədlər toplusunda bu barədə deyilir: "19-20 iyun 2003-cü il tarixində, Fessalonikidəki görüşündə Avropa İttifaqı Dövlət və Hökumət Başçılarının Şurası Konvensiyanın prezidenti J.d`Estenin təqdim etdiyi Konstitusiya sazişinin layihəsini bəyəndi. Avropa İttifaqinin hökumət və dövlət başçıları layihəni "Hökumətlərarası konfransın başlanması üçün yaxşı əsas" kimi qiymətləndirdilər" (5, s. 23). Beləliklə, 4 oktyabr 2003-cü il tarixində məhz bu məqsədlə çağırılmış Konventin konfransında Avropa üçün təsis ediləcək konstitusiyanın layihəsi təsdiq edildi.

Romada Avropa İttifaqının üzv dövlətlərinin başçıları 29 oktyabr 2004-cü ildə Aİ Konstitusiyası haqqında müqaviləyə imza atdılar. 2007-ci ildə qüvvəyə minmiş bu Konstitusiya dünyada bu günə qədər mövcud olan ən iri həcmli Konstitusiyadır, belə ki, o, 265 səhifədən, 448 fəsildən ibarətdir.

Avropa İttifaqı Dövlət və Hökumət Başçıları Şurasının müzakirəsinə verilmiş Konstitusiya layihəsində bir sıra "az əhəmiyyətli" müddəalarla yanaşı, həm də "çox böyük" əhəmiyyət kəsb edən məsələlər də ifadə olunmuşdur. Burada deyilir ki, Avropa İttifaqı Dövlət və Hökumət Başçıları Şurasının Prezidentinin yalnız bir dəfə təkrar seçilmək hüququ var və o, iki il yarım müddətə ixtisaslaşmış səs çoxluğu ilə seçilməlidir. Eyni zamanda, Avropa Komissiyasının Prezidenti Avropa Parlamenti

üzvlərinin əksəriyyəti tərəfindən seçilməlidir. Bu seçkilər zamanı Komissiya prezidentliyinə namizəd Avropa İttifaqı Dövlət və Hökumət Başçılarının Şurası tərəfindən təklif olunmalıdır. Bundan başqa bu layihədə Aİ-nin xarici işlər nazirinin statusunu müəyyn edən müddəa və onun seçilmə mexanizmi öz əksini tapmışdır. Bu layihədə, eyni zamanda, daha çox mübahisə doğuran belə müddəalar da var:

" - Avropa İttifaqına hüquqi subyektlik verilməlidir...

- Avropa Parlamentinə qanunvericilik və büdcə ilə bağlı səlahiyyətlər verilməlidir" (5, s. 23).

Bununla yanaşı, burada mübahisə doğurmayan və hamı tərəfindən birmənalı şəkildə qəbul olunan bir sıra mütərəqqi səciyyəli müddəalar da var ki, bu müddəalara görə "İttifaq və onun üzv dövlətlərinin səlahiyyət və cavabdehlikləri daha aydın bölünməli; Aİ-nin tamamlanma prinsipinə müvafiq olmasının təmin edilməsində milli parlamentlər iştirak etməlidirlər" (5, s. 23).

Bu günə qədər Aİ-nin 25 üzv dövlətindən artıq doqquzu bu konstitusiyanın qəbul olunması barədə qərar qəbul etsə də, bu sənəd bütün üzv dövlətlər tərəfindən birmənalı qarşılanmadı. Bəzi dövlətlər həmin sənədin qəbul ediləcəyi təqdirdə, onsuz da kövrək olan bu İttifaqda daha dərin çatlar yaranacağından və daha çox inkişaf etmiş bir sıra Qərb ölkələrinin sosial həyatında müəyyən çətinliklərlə üzləşə biləcəklərindən ehtiyat etməyə başladılar. Bu sənədin qəbul edilməsi Qərbi Avropanın daxilində olduğu kimi, dünyanın digər regionlarının da siyasi dairələrində ciddi narahatlığa səbəb oldu. İlkin olaraq birbaşa ABŞ-ın təşəbbüsü ilə yaradılan Aİ-nin gələcəkdə daha da güclənəcəyi təqdirdə dünyanın geosiyasi mənzərəsinin Qərbi Avropanın xeyrinə dəyişəcəyini görən ABŞ siyasi rəhbərliyi bu layihənin əhəmiyyətini azaltmaq və onun doğura biləcəyi fəsadları qabartmaqla, perspektivsiz olacağı haqqında fikirləri dilə gətirməyə başladılar. Bu sox güman ki, ABŞ siyasi rəhbərliyinin Avropada güclü rəqib görmək istəməməsindən irəli gəlirdi.

Bu yaxınlarda ABŞ-ın məşhur analitik mərkəzlərindən biri olan, çox nüfuzlu Kato institutunun sədri U.Niskanen bu məsələ ilə əlaqədar "Daha kamil Avropa İttifaqı" (14) adlı bir məqalə çap etdirmişdir. Məqalə müəllifi əsas etibarilə Aİ Konstitusiyasını ABŞ Konstitusiyası ilə müqayisə edərək ikincinin üstün cəhətlərini göstərməyə çalışır. İlk növbədə, təbii bir sual yarana bilər ki, müəllif nə üçün bu sənədi məhz ABŞ Konstitusiyası ilə müqayisə edir və hələ yenicə yaranmaqda olan Avropa İttifaqı ilə ABŞ-ı hansı məqsədlə qarşı-qarşıya qoyur? Aydın məsələdir ki, ABŞ Aİ-nin gələcəkdə güclü bir struktura malik olan bir birlik kimi görmək istəmir və bu yolla onun hələ yenicə yaranmaqda olan Konstitusiyasını gözdən salmağa çalışır.

Bu məqalədə müəllif Avropa İttifaqına daxil olan bütün insanlar, o cümlədən də maddi cəhətdən təmin olunmuş avropalılır üçün həssas məsələlərdən biri olan sosial problemlərlə bağlı bu Konstitusiyada yer alan məsələlərə xüsusi diqqət ayırır və öz "gənc" amerikalı məntiqi ilə "qoca" avropalını inandırmağa calışır ki, bu sənəd qəbul olunarsa, yaxın gələcəkdə onu hansı problemlər gözləyə bilər. O, bu məsələ ilə bağlı Avropa Konstitusiyasının aşağıdakı bəndini misal gətirir: "...insanların, malların (əmtəələrin), xidmətlərin və kapitalların azad hərəkət etməsi, təşkilatların azadlığı İttifaq daxilində təmin olunmalıdır və bunun sayəsində... istənilən milli mənsubiyyətə görə diskriminasiya (hüquqların po-

zulması) qadağan edilməlidir" (14, s. 2). Ameriкalı politoloq bu bəndlə bağlı özünün (həm də təmsil etdiyi ölкənin) münasibətini açıqlayaraq ona sкeptiкcəsinə yanaşır. Bu bəndə öz münasibətini o, belə açıqlayır: "Çox gözəl. Digər tərəfdən, görünür кi, İttifaqın istənilən vətəndaşı, yaşadığı yerdən asılı olmayaraq geniş speкtrə maliк olan sosial xidmətə iddia edə bilər. Bu, ya insanların daha yüкsəк səviyyədə bu xidmətləri göstərə bilən ölкələrə geniş şəкildə кöçməsi, ya da Aİ-nin uzv dövlətlərində bu xidmətlərin tarazlaşmasına gətirib çıxaracaq" (14, s. 2).

Məqalədə diqqəti çəкən yerlərdən biri də müəllifin insan haqları ilə bağlı məsələyə subyeкtiv münasibətidir. O, yenə də bu sənədi ABŞ Konstitusiyası ilə müqayisə edərəк, bu bəndin də qüsurlu olduğunu qeyd edir. Onun fiкrincə, bu "qüsur" ondadır кi, ABŞ-da insan haqları dövlətə bağlı deyil, ondan yüкsəкdə dayanır. Burada isə insan haqları ilə bağlı bir sıra xidmətlər dövlət tərəfindən təmin olunur. Belə xidmətlər sırasına daxildir: "Məsələn, bu, təhsil hüququdur, pulsuz məşğulluq xidmətidir, deкret məzuniyyətinin ödənilməsi, sosial təminat məqsədilə müavinət, mənzillə təmin olunmaq üçün vasitəçiliк, xəstəliкlərin profilaкtiкası, ətraf mühitin yüкsəк səviyyədə mühafizəsi və istehlaкçının hüquqlarının müdafiəsindən ibarətdir" (14, s. 2). Halbuкi, bu müddəanın кifayət qədər humanist və mütərəqqi səciyyəli olması göz qabağındadır. Bu məqaləyə münasibət bildirən A. Maкlaкov müəllifin sosial təminat barədə belə mövqe tutmasının məqsədini laкoniк olaraq belə ifadə edir: "Səbəb məlumdur: bu gün кiçiк Buş administrasiyası sosial təminat sisteminin tam söкülməsi planlarını həyata кeçirir" (14, s. 1).

Bu ameriкalı politoloqun proqnozları tezliкlə Avropada da İttifaqa üzv dövlətlərdən bəzilərinin siyasətində özünü göstərdi. Fransa və Hollandiya bu Konstitusiyanı dəstəкləmədilər. İlк öncə bu sənədin qəbulu ilə bağlı problem Fransada yarandı. Haqqında bəhs olunan sənədin qəbulu mexanizmi ilə əlaqədar uzun-uzadı müzaкirələrdən sonra bu məsələ, son nəticədə ümumxalq referendumuna çıxarıldı. Fransız xalqı bü plebissitdə çox fəal iştiraк etdi, seçicilərin 70%-dən çoxu referendumda iştiraк etdi və onların da 54,87%-i bu sənədin əleyhinə səs verdi. Lenta.ru saytında səsvermənin nəticələnməsinin səbəbləri belə açıqlanır: "Analitiкlərin fiкrincə, bu qərar ondan irəli gəlir кi, fransızların əsas hissəsi Ümümavropa Konstitusiyasının ölкənin əmin-amanlığını pozacağından ehtiyat edirlər, onlar qorxurlar кi, o, Avropa İttifaqının haкimiyyət orqanlarına həddindən artıq böyüк səlahiyyətlər verəcəк və əsas istehsal sahələrinin, əməк haqqı həddindən aşağı olan Şərqi Avropaya кöçəcəyinə şərait yaradacağı üçün, Fransada işsizliyin səviyyəsi yüкsələcəкdir" (10). Fransada Avropa Konstitusiyasının qəbul edilməməsinin səbəbləri J.-L.Mateunun «Avropa İttifaqı» adlı кitbında (9) ətraflı şəкildə göstərilmişdir .

Niderlandda 02 iyun 2005-ci il tarixində кeçirilmiş referendumda hollandlar da Avropa Konstitusiyasına səs vermədilər. Daha doğrusu, səslərin ilкin hesablanması zamanı məlum oldu кi, səsvermədə iştiraк edən Niderland vətəndaşlarının 100%-indən 61,7%-i əleyhinə, 39,3%-i isə Avropa Konstitusiyasının lehinə səs verdi. Referendumda səsvermə hüququ olan 11,6 milyon Hollandiya vətəndaşının 63%-i iştiraк etmişdir. Beləliкlə, hollandlar da fransızların ardınca bu кonstitusiyanı qəbul etməməк haqqında iradələrini ortaya qoydular. Holland eleкtoratının bu sənədə belə münasibət bəsləməsini yerli holland və bəzi xarici siyasətçi-

lər bir sıra səbəblərlə izah edirlər. Niderlandın xarici işlər naziri Bernard Bot bunu siyasətçilərin Avropa inteqrasiyası və ümumavropa problemlərini cəmiyyətə vaxtında və lazımi səviyyədə izah etməmələrində görür və "Mən bundan özüm üçün dərs aldım" (15, s. 1) deyir. Yerli KİV nümayəndələri isə bunun səbəbini açıqlayaraq deyirlər ki, hollandlar uzun müddət Avropa işlərində "ikinci skripka" rolunu oynayıblar və konstitusiyaya belə münasibət bildirməklə onlar susqunluqlarına görə revanş götürürlər. Niderland siyasətçilərinin bu məsələ ilə bağlı maraqlı fikirləri var. Onların fikrincə "...Niderland əhalisi daha çox ondan ehtiyat edir ki, yeni Avropa "superdövləti" bu ölkədə qanunla icazə verilən yüngül narkotik maddələrin qəbuluna, homoseksualistlərin evlənməsinə və evtanaziya kimi bir sıra liberal dəyərlərə son qoyacaq" (15, 1). Yalnız Niderlandda mövcud olan və Avropanın başqa ölkələrindən əsaslı şəkildə fərqlənən bu normaların qorunmasında Amsterdam Brüsselin bu vətəndaş "sərbəstliyinə" son qoyması üçün irəli sürdüyü bütün qanunvericilik cəhdlərinə bu vaxta qədər uğurla sinə gərə bilib. Hollandlar, belə bir fikir də söyləyirlər ki, Fransa bu sahədə yaranmış böhranı həll etməyincə referendum keçirmək olmaz. Onlar belə hesab edirlər ki, ya Fransa müsbət sonluqla nəticələnən səsvermə keçirməlidir, ya da bu Konstitusiyanı ölü saymaq lazımdır (15, s. 2).

Rusiyanın "Rosbalt" agentliyinin internet saytında yayımlanan məqalədə Avropa Kostitusiyasının Niderlandda qəbul edilməməsinin digər səbəbləri də göstərilir. Bu sənədin qəbul edilməməsinin başlıca səbəblərindən biri, agentliyin fikrincə, ondan ibarətdir ki, "hollandlar, ilk növbədə, yarana biləcək **Avropa mərkəzçiliyindən** qorxurlar, qorxurlar ki, onlar **milli identikliklərini (milli simalarını)** itirə bilərlər"(15, s. 3).

Bütün bu fikir ayrılıqlarına baxmayaraq, Avropa İttifaqına daxil olan əksər aparıcı dövlətlər bu konstitusiyaya nikbinliklə baxırlar. Artıq Avropa ölkələri bir hüquqi sənəd kimi ona istinad etməyə başlayıblar. Bu günlərdə ikinci nəşri işıq üzü görən "Avropa hüququ" dərsliyinin müəlliflərindən biri L.M.Entin bununla əlaqədar yazır: "Avropa İttifaqının Konstitusiyası – hüquqi sənəddir və hələ o, formal olaraq ratifikasiya edilməsə də, onun qaydaları ilə həm üzv dövlətlər, həm də Avropa İttifaqının institutları artıq bu gün hesablaşırlar" (10, s. XVIII).

Beləliklə, göründüyü kimi, Avropa Konstitusiyası əgər bir tərəfdən Avropa İttifaqına daxil olan dövlətlərin və onların vətəndaşlarının mənafeyini qoruyursa, digər tərəfdən "neoimperiya" səciyyəsi daşıyan mərkəzçilik mövqeyində dayanır. Daha doğrusu, Avropa Konstitusiyasının Avropa İttifaqını qoruyub saxlamağa xidmət edən yeni idarəçilik modeli olması göz qabağındadır. Bu model, ilk növbədə, daha çox Qərb – xristian dünyasının inkişafına xidmət edən Avropa mərkəzçiliyi ideologiyasının nəzəri əsasının tərkib hissələrindən birini təşkil edir.

## QEYDLƏR


1. Бжезинский З. Великая шахматная доска. М.: Международные отношения, 1999.
2. Бжезинский З. Выбор: Мировое господство или глобальное лидерство. М.: Международные отношения, 2004.
3. Василенко И.А. Геополитика современного мира. М.: Гардарики, 2006.
4. Гудби Дж. Бувальда П. Тренин Д. Стратегия стабильного мира. Навстречу Евроатлантическому сообществу безопасности. М.: "Международные отношения", 2003.
5. Fontan P. Avropa sənədləri haqqında on iki dərs. Bakı: 2005.

6. Европа перемен. Концепции и стратегии интеграционных процессов / Под редакцией профессора Л.И. Глухарева. М.: Изд-во "Крафт+", 2006.
7. Европейское право. Право Европейского Союза и правовое обеспечение защиты прав человека. Руководитель авторского коллектива и ответств. ред. – проф. Л.М.Ентин. М.: НОРМА, 2007.
8. Европейский союз. Справочник, Под ред. О.В.Буториной (отв. ред.), Ю.А. Борко и И.Д. Иванова. М.: Деловая литература, 2003.
9. http:www.russİanla/com/common /ark/storİ.php?İd_cr=132&İd=196892 .
10. İbadov R. Avropa İttifaqının əsasları, Вакı: "Rza İbadov", 2004.
11. История дипломатии, в 3-х томах, том I. М.: ОГИЗ Государственное социально-экономическое издательство, 1941.
12. Mateu Jan-Lyuk. Avropa Birliği, Ankara:Dost, 2006.
13. Михайлов С.А. США и общеевропейская политика в сфере безопасности и обороны, М.: Рос. ин-т стратегич. исслед., 2006.
14. Нисканен В. Более совершенный Европейский Союз// http: // www.techcentralstation. com /080403.html.
15. Редин М. Реванш за молчание. // http://www. smi. Ru.
16. Рутенбург В.И. Жизнь и творчество Макьявелли. См.: в кн. Никколо Макьявелли «История Флоренции». М.: Наука, 1973 .
17. Современные международные отношения и мировая политика. Ответственный редактор член-корреспондент РАН, проф. А.В.Торкунов М.: Просвещение, 2005.
18. Сумороков В.Н. Сумороков Н.В. Расширение Европейского Союза и внешнеэкономические связи России. М.: Финансы и статистика, 2006.

## ЕВРОПЕЙСКАЯ КОНСТИТУЦИЯ: ПРОБЛЕМЫ И ПЕРСПЕКТИВЫ

**Н.Дж.НАГИЕВА**

### РЕЗЮМЕ

Начиная с средних веков, народы Западной Европы стремились к объединению. Выдающиеся государственные деятели и политики искали оптимальные пути и создавали различные теории. После 90-х годов XX столетия в политической карте мира произошли серьезные изменения. Усилилась интеграция народов Европы, в результате чего образовался Европейский Союз, и для работоспособности ЕС была разработана его Конституция.

## EUROPE CONSTITUTION: PROBLEMS AND PERSPECTIVES

**N.Dj.NAGIYEVA**

### SUMMARY

From the middle ages the peoples of the Western Europe strove to unity. Outstanding politicians sought optimum ways and developed different theories. The serious political changes took place in the world since the 90s of the XX century. Increased integration led to the formation of Europe Union and for the successful functioning of this organization it's Constitution was worked out.